**UOT 7.001.8**

**ZENFİRA SEYİDOVA***

# SƏNƏT NÜMUNƏLƏRİNDƏ YAŞANAN TARİX

*Zəngin təbiəti, əlverişli coğrafi şəraitə malik Naxçıvanda hələ qədim dövrlərdən xalçaçılığın geniş inkişafı üçün əlverişli şərait olmuşdur. Kültəpə yaşayış məskənindən tapılmış (e.ə IV – III minillik) ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın o zamanlar ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübut edir. Naxçıvan xalçaları ümumilikdə Azərbaycan xalça sənətini öz ənənəvi naxışları ilə zənginləşdirmişdir. Məqalədə Naxçıvan qrupu xalçalarından bəhs olunur və onların təbliğində Naxçıvan Dövlət Xalça Muzeyinin rolunun əvəzsiz xidmətləri açıqlanmışdır.*

**Açar sözlər:** *Muzey, xalça, sənət, xovlu, xovsuz, ekspozisiya, nəbati, həndəsi*

Uzaq keçmişimizdən bu günümüzə miras qalmış Azərbaycan xalçalarının hər bir naxışında, hər bir elementində tarixi məlumatlar gizlənir. Azərbaycan xalçaları nəinki ölkə daxilində eyni zamanda dünya mədəniyyəti tarixində özünəməxsus yeri olan və bədii sənət təcrübəsinin zənginləşməsinə xidmət edən sənət nümunələridir.

Tarixi mənbələrdə Azərbaycan xalçaları haqqında verilən məlumatlar xalqımızın milli sərvəti olan xalçaçılıq sənətinə aid dəyərli faktları özündə əks etdirir. Bu məlumatlar da xalçaçılıq sənətinin dekorativ – tətbiqi sənət nümunələri arasında daha çox araşdırılmasına ehtiyac olan sahələrdən biri olmasını şərtləndirir. Maddi-mənəvi tələbata əsaslanaraq və böyük inkişaf yolu keçən xalçaçılıq nümunələri, sonralar sənət əsərlərinə, hazırda isə nadir və dəyərli muzey əşyasına çevrilmişlər. Qədim tarixi olan ölkəmizin çoxsaylı sənət nümunələrinin bir hissəsi müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda saxlanılır və belə sənət nümunələri birbaşa ölkəmizi təbliğ edir. Bu təbliğdə Azərbaycan onun tarixi, coğrafi mövqeyi, yaşam tərzi, mədəniyyəti, iqtisadiyyatı, inkişafı və s. bir çox amillər öz əksini tapır ki, bu da bütövlükdə ölkəmizə olan marağı artırır.

Xalçaçılıq xalq yaradıcılığının ən qədim örnəklərindən biridir. Maddi-mədəniyyət tariximizi özündə yaşadan, nənələrimizin ana və bacılarımızın min bir zövqlə toxuduqları bu sənət nümunələrinin özünəməxsus cəhətləri, spesifik xüsusiyyətləri ilə seçilib, fərqlənib, ta qədimdən şöhrət alıb. Odur ki, qiymətli sərvətlərimiz, sənət incilərimiz həmişə səyyahların, alimlərin, tədqiqatçıların diqqətini çəkmiş, hər bir naxışında xalqımızın adət-ənənəsini, əxlaqını, mədəniyyətini, həmçinin onu yaradan sənətkarın qəlb çırpıntılarını yaşadan bu sənət incilərimizi dünyanın bir çox ölkələrinə aparmışlar (3, s.17).

Naxçıvan ərazisində də xalçaçılıq sənətinin yaşı qədimdir. Azərbaycan xalçaçılığının Naxçıvan məktəbi özünəməxsusluğu ilə həmişə diqqət çəkmişdir. Burada yaşayan insanlar erkən vaxtlardan əyiriçiliklə məşğul olublar. Bunu Kültəpə qədim yaşayış məskənindən tapılmış ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi arexoloji materiallar bir daha sübut edir (2, s.12).

Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə məlumatlara orta əsr ərəb müəlliflərinin əlyazmalarında da rast gəlmək mümkündür. Naxçıvanda istehsal edilən 20 – 30 $m^2$ – dək iriölçülü, qalın toxunuşa malik xovlu xalça, keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilmişdir. Özünəməxsus inkişaf yolu keçən Naxçıvan xalçaçılığının layiqli nümunələri qədim ipək yolu vasitəsilə başqa ölkələrə də aparılmışdır.

Qürurla deyə bilərik ki, muxtar respublikamızda xalçaçılıq sənəti bu gün də yaşayır və

nəsildən – nəsilə ötürülür. Qeyd edim ki, bu sənət örnəklərimiz də qorunur, tədqiq və təbliğ olunur. 1998-ci ildə paytaxt şəhərimizdə fəaliyyətə başlayan Naxçıvan Dövltə Xalça Muzeyi belə maddi – mədəni irsimizə böyük diqqətin, qayğının təzahürüdür. Hazırda bu mədəniyyət müəssisəsində bir-birindən orijinal, gözəl xalçalar nümayiş etdirilir. Həmçinin burada xalçaçılığın inkişaf yolu barədə tamaşaçılara məlumat verilir. Ekspozisiyada divarboyu zövqlə düzülmüş estetik baxımdan yüksək zövq aşılayan, insanı düşünməyə sövq edən Naxçıvan xalçaları üslub və kompozisiyalarına görə də bir birinə bənzəmirlər. Xalçaların elementlərinə diqqət yetirdikdə və onlardan hər hansı birinin yaranma mənbəyini araşdırdıqda məlum olur ki, bu təsvirlərin əksəriyyəti sənət nümunələri vasitəsilə qədim dövrlərdən bu günümüzə qədər gəlib çatmışdır. Naxçıvan xalçalarındakı bir çox naxışlar özündə xalqımızın mənəviyyatını, məişətini, folklorunu, mərasimlərini və həyat tərzini əks etdirirlər. Bu naxışların hamısını tipoloji cəhətdən bir neçə qrupa bölmək olar: Həndəsi, zoomorf, astral, nəbati, epiqrafik naxışlar.

Bütün bu naxışlar üslub cəhətdən də fərqlərə malikdirlər. Belə ki, onlardan bəziləri əyrixətli digərləri isə sxematik və ya həndəsi formadadırlar. Naxçıvan xalçalarında ən çox rast gəlinən həndəsi naxışlar kimi müxtəlif rombları, dördbucaqlıları, dairələri, üçbucaqları və s. göstərmək olar (1, s. 18).

Bu həndəsi motitvlər mücərrəd fikirləri və ideyaları rəmzi şəkildə əks etdirirlər. Belə ki, romb bolluğu, məhsuldarlığı, dördbucaqlı şumlanmış yeri, dairələr isə səma cisimlərini, xaç günəşi, üçbucaqlar isə dağları, sərhədləri ifadə edirlər.

Xalça “Cələbi” Yun xovlu 220x145 1800-cü il Naxçıvan qrupu

Xalçanın ara sahəsinn əsas bəzəyi ara sahədə yerləşdirilmiş iki böyük ölçülü göldən ibarətdir.Göllərin içərisində “dörd ünsür” element vardır.”Dörd ünsür” elementinin mərkəzində rombvari medalyon işlənib.Medalyonun içərisində boz, qəhvəyi, şəkəri, ağ rənglərlə işlənmiş dördləçəkli gül, yuxarı, aşağı, sağ və sol künclərində isə sarı, kərpici rəngli səkkiz ləçəkli güllər vardır.Güllərin kənarlarında “dörd ünsür” motivlərinin üzərində kiçik ölçülü çiçəklər işlənmişdir.

Göllərin kənarları alov dillərinə bənzər çıxıntılardan ibarətdir.bu alovlanan predmetlər xalçanın ara sahəsindəki boşluqlar istiqamətində şaxələnərək xalçaya çox zəngin görünüş gətirmişdir.

Xalçanın ara sahəsinin boşluqlarında kiçik və nisbətən böyük ölçülü “butalar, dörd, altı ləçəkli ceyran fiqurlarının üzərində mavi-çəhrayı, mavi-sarı, qəhvəyi-ağ rəngli kvadrat şəkilli elementlər vardır.Nisbətən böyük ölçülü butalar, dörd altıləçəkli gül-çiçək və stilləşmiş ceyran təsvirləri verilib.Qəhvəyi ağ rəngli kvadratşəkilli elementlər vardır.Nisbətən böyük ölçülü butaların içərisində ağac motivləri işlənib.

Zoomorf motivli naxışlarda Naxçıvanın zəngin faunası öz əksini tapmışdır. Tovuzquşu, qartal, at, it, dəvə, qoç, maral və s. heyvan təsvirləri naxışlara çevrilərək tarixi məlumatla bərabər dekorativ xüsusiyyətlərə malik olmuşlar.

Xalça naxışlarında rast gəlinən müxtəlif astral motivlər əcdadlarımızın inanclarını və pərəstişlərini əks etdirirlər. Belə ki, günəşin, ayın, ulduzların çoxsaylı təsvirləri əcdadlarımızın mənəvi aləmini və ideologiyasını ifadə edirlər.

Nəbati naxışlar Azərbaycanın zəngin florasının əks etdirməklə bərabər əcdadlarımızın təbiətə, gözəlliyə vurğun olmalarını nümayiş etdirirlər. Belə naxışlardan müxtəlif güllərə, çiçəklərə, ağac və kol növlərinə rast gəlinir.

Qeyd edək ki, Naxçıvan Dövlət Xalça Muzeyində mühafizə olunan XVIII – XX əsrlərdə toxunmuş “Ordubad xalçası”, “Leyli və Məcnun”, “Ömər Xəyyam”, “Ovçuluq” və digər müxtəlif ölçülü xalça və xalça məmulatları sənətkarlıq baxımından kamil əsərlər hesab edilirlər. XX əsrə aid edilən və dolambac naxışlarla bəzədilmiş “Ordubad” adlı xalça kompozisiya quruluşu ilə seçilir. Xalça göl təsvirindən ibarətdir. Ordubad rayonunda toxunmuş bu xovlu xalçada

göl paxlavari formada təsvir olunub və kənarları haşiyələnib, nəbati naxışlarla bəzədilib. Bu sənət incisinə diqqətlə nəzər salsaq Ordubad təbiətinin füsunkar gözəlliyini duya bilərik. Bu gün Naxçıvan Dövlət Xalça Muzeyinin ekspozisiyasında Şahbuz rayonunun Keçili kəndindən gətirilmiş XVIII əsrin əvvəllərinə aid ovçuluq adlı qədim bir xalça nümayiş etdirilir. Bu xalça öz orjinallığı, rəng həlli üzərindəki insan və heyvan, həmçinin qoç təsvirləri ilə tamaşaçıları heyran edir. Xalçadakı rəmzi detallar, iplərin qalınlığı, ilmələrin azlığı və üzərindəki həndəsi naxışlar ovçuluqla məşğul olan ulu babalarımızı yada salır və Naxçıvan xalçaçılıq məktəbinin min illər bundan əvvəlki qədim tarixindən xəbər verir.

Təəssüflə bildirməliyəm ki, hələ orta əsrlərdən Naxçıvana gələn əcnəbi səyyahlar, tacirlər zaman-zaman burada talançılıqla və işğalçılıqla məşğul olan gəlmə insanlar Naxçıvanın belə qiymətli, tarixi xalçalarını ələ keçirərək xarici dövlətlərə aparır və başqa millətlərə məxsus sənət nümunələri adı ilə satardılar. Bu gün bəşər mədəniyyətinin dünya şöhrətli incilərini özündə qoruyub saxlayan Luvr (Paris), Vatikan (Vatikan), Viktoriya və Albert (London), Metropoliten (Nyu-york), Ermitaj (Sankt-Peterburq) və başqa məşhur muzeylərdə müxtəlif adamların kolleksiyalarında, Təbriz, Gəncə, Qazax, Quba, Şirvan, Qarabağ xalçaları ilə yanaşı çox qədim tarixi olan Naxçıvan xalçalarını da görürük. Çeşnisi məlum olan bu xalçalar tacirlər və səyyahlar tərəfindən əmtəə halında alınıb Naxçıvandan aparıldığından, elmi-tədqiqat işləri aparılmadığından, ünvanları dəqiqləşdirilmədiyindən bu xalçalar sadəcə İslam mədəniyyət nümunəsi kimi qeydə alınmışdır.

Lakin sevindirici haldır ki, Lətif Kərimov bu sənətin əhatə dairəsini cənuba və şimala bölmədən bütövlükdə Azərbaycan xalçasının inkişaf genezisini işləmişdir. Bu yolda ilk dəfə olaraq xalça növlərinin dəqiq təsnifatını vermiş, sırf Azərbaycan xalçalarını İran, Qafqaz və digər regionların xalça nümunələrindən fərqləndirmişdir.

O, xalçaçılıq məktəblərinin fərqlərini, onların bədii, texniki xüsusiyyətlərinə görə müəyyənləşdirərək ayırd etmişdir. Lətif Kərimovun "Azərbaycan xalçası" monoqrafiyasından sonra dünya muzeylərində və kitablarda şərq, İran, Qafqaz və s. kimi ümumi adlar altında şöhrət tapmış yüzlərlə xalçaya yeni pasport verildi. Əsl vətənləri yurdu-yuvası bəlirləşdi. (4, səh 23)

Naxçıvan xalçalarının dünya şöhrəti qazanması yalnız onların toxunuşu ilə fərqlənmir. Xalçalarımızın milli elementləri arasında klassik Azərbaycan şairlərinin əsərlərindəki sürətlərin təsvirlərinə də geniş yer verilir. Bədiilik baxımından son dərəcə maraqlı olan balaca ölçülü "Leyli və Məcnun" adlı xovlu xalça öz mürəkkəb kompozisiyası ilə digər xalçalardan seçilir. Xalçadan təbiət mənzərəsi və iki gəncin ağac budağı üzərində namə oxuması təsvir olunub. Onu da qeyd edək ki, bu xalçanın toxunuşundan müxtəlif rənglərdən istifadə edilsə də, onlar arasında simmetrik ahəngdarlıq pozulmamışdır.

Əksinə bu rəng çalarları kompozisiyada bir bitkinlik və bütövlük yaratmışdır. Müxtəlif naxışlarla bərabər xalçaların rənglər aləmi də tarixi məlumata malikdir. Belə ki, müxtəlif qruplara aid olan xalçalardakı aparıcı rənglər yerli təbiətin əsas rənglərini əks etdirmişlər.

Naxçıvan toxuculuq texnologiyalarının da dərindən öyrənilməsi və yenidən yaradılması bu günün ən aktual məsələlərindən biridir. Bu işdə Naxçıvan Dövlət Xalça Muzeyi əməkdaşlarının da xüsusi əməyi var. Muzeydə bir-birindən dəyərli xalça və xalça məmulatları mühafizə olunur, xovlu xalça kompozisiyası üzrə toxunulmuş xalçaların strukturu, nisbəti və s. oxşar-fərqli cəhətləri təhlil olunmaqla öyrənilir.

Xalçalardakı oxşar və fərqli cəhətlər – onların texnoloji xüsusiyyətləri (iplikləri, sıxlıqları), rəng özəllikləri, bədii əhəmiyyəti, dövrü və s. ən başlıca amillərdir. Muzeydə bu istiqamətdə aparılan işlər hər bir xalçanın texniki xüsusiyyətlərinin ayrı-ayrılıqda tədqiq olunması ilə nəticələnmişdir. Belə ki, muzeyin əməkdaşları xovlu və xovsuz xalçalar toplularına aid olan hər bir eksponatın - ərişinin, arğacının, üz ipliklərinin, saçaqlarının, şaquli və üfiqi yatımını və başqa

texiniki xüsusiyyətlərini özəlliklər araşdırmışlar. Müxtəlif xalça və xalça məmulatları üzərində tədqiqat işləri aparılmışdır ki, beləliklə də sənət nümunələrimizin zənginliyi, onların texnoloji və bədii kamilliyi müəyyən olunmuşdur. Bu sənət əşyaları üzərindəki naxışların tədqiqi və onların geniş tamaşaçı kütləsinə təqdim olunması mədəniyyətimizin təbliğinə, tariximizin öyrənilməsinə xidmət edir.

Azərbaycan xalçaçılıq sənəti xalqımızın zövqünü, bədii düşüncə tərzini əks etdirməklə bərabər tarixi məlumatları da gələcək nəsillərə çatdırırlar. Bu məlumatların hər birini dərindən araşdıraraq öyrənmək xalqımızın ümumi tarixinin öyrənilməsinə dəyərli töhfə olardı.

Bəli, bu gün Naxçıvan Dövlət Xalça Muzeyinə üz tutan hər bir tamaşaçı burada incə toxunuşlu xalçalarımızdan zövq almaqla yanaşı xalçaçılığın tarixi, müxtəlif dövrləri, xalçaların ornamentləri ilə əyani şəkildə tanış ola bilərlər.

***Naxçıvan Dövlət Universiteti,***
***E-mail:seyidova_z@mail.ru***

## ƏDƏBİYYAT

1. Kərimov L. Azərbaycan naxış elementlərindən nümunələr. Bakı, 1983.
2. Tahirov K. Azərbaycan xalçası. Bakı, 2012.
3. “Qobustan” jurnalı, 1973, № 2.

**Zenfira Seyidova**

## HISTORY LIVING IN ART WORKS

Nakhchivan, which has a rich nature and favorable geographical conditions, has had favorable conditions for the comprehensive development of carpet weaving since ancient times. Primitive clay pots and bone fragments found in Kultapa settlement (IV-III millennium BC) prove that Nakhchivan was one of the oldest weaving centers at that time. In general, Nakhchivan carpets enriched the Azerbaijani carpet art with its traditional patterns. The article discusses the carpets of the Nakhchivan group and the invaluable services of its role in the promotion of the Nakhchivan State Carpet Museum.

**Keywords:** *Museum, carpet, art, pile, pileless, exposition, flora, geometry.*

**Сеидова Зенфира**

## ПРОЖИВАЮЩАЯ НА ОБРАЗЦАХ ИСКУССТВА

Богатая природа и благоприятные географические условия Нахчывана издревле имели подходящие условия для всестороннего развития ковроткачества. Первобытные глиняные горшки и фрагменты костей, найденные в поселении Култапа (IV-III тысячелетия до н.э.), доказывают, что Нахчыван был одним из древнейших центров ткачества того времени. В целом, нахчыванские ковры обогатили азербайджанское ковровое искусство своими традиционными узорами. В статье рассматриваются ковры

Нахчыванской группы и неоценимые заслуги Нахчыванского государственного музея ковра в их продвижении.

**Ключевые слова:** *музей, ковер, искусство, ворс, без ворса, экспозиция, флора, геометрия.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 19.01.2021**
**Son variant: 04.03.2021**